"Əli bəy Hüseynzadənin150 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 21 yanvar 2014-cü il tarixli 234 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə" nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1.«Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 21 yanvar 2014-cü il tarixli 234 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan MR Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri, ali təhsil müəssisələri, Nazirlik tabeliyindəki ümumi təhsil müəssisələrinin rəhbərləri:

2.1.Əli bəy Hüseynzadənin yubileyi ilə bağlı təsdiq olunmuş Tədbirlər Planının yerinə yetirilməsini təmin etsinlər.

2.2.Əmrin icrası ilə bağlı görülmüş işlər barədə 25 iyun 2014-cü ilədək Təhsil Nazirliyinə hesabat təqdim etsinlər.

3. İnformasiya şöbəsi (E.Əliyev) əmrin əlavəsi ilə birlikdə çoxaldılıb yerlərə göndərilməsini və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

4. Əmrin icrasına nəzarət nazir müavini C. Bayramova həvalə olunsun.

Əsas: Azərbaycan Respublikası Prezidentinin 21 yanvar 2014-ci il tarixli 234 nömrəli Sərəncamı.

***Mikayıl CABBAROV,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***8 aprel 2014-cü il***

***№392***

---

**Əlavə:**

«Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi haqqında» Azərbayjan Respublikası Prezidentinin 21 yanvar 2014-jü il tarixli 234 nömrəli Sərənjamının ijrası ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədbirlər Planı